**YUNESKO-NUN "ÜMUMDÜNYA MƏDƏNI VƏ TƏBII IRSIN QORUNMASI HAQQINDA" KONVENSIYASINA AZƏRBAYCAN RESPUBLIKASININ QOŞULMASI BARƏDƏ**

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsaslanaraq **qərara alır:**

1. Azərbaycan Respublikası YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasına (Paris, 16 noyabr 1972-ci il) qoşulsun.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasının həyata keçirilməsi ilə bağlı bütün əməli məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, müvafiq Konvensiyaya qoşulmaq haqqında Milli Məclisin qərarı barədə YUNESKO-ya məlumat versin.

**R. QULİYEV.**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

Bakı şəhəri, 6 dekabr 1993-cü il.
№ 764.